*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

18 mart 2022-ci il №11 (8969)

www.muallim.edu.az muallim@edu.gov.az





# Novruz bayramını ŞUŞADA, CIDIR DÜZÜNDƏ qeyd edirik

## Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva 20 mart 2021-ci il tarixdə Şuşada Cıdır düzündə bayram tonqalı alovlandırıblar



**BİZ** bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. 2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq. Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir.

# Türkiyə və Azərbaycan arasında təhsil sahəsində əməkdaşlıq genişlənir





## Təhsil naziri Emin Əmrullayev Türkiyədə işgüzar səfərdədir

## Türkiyənin milli təhsil naziri ilə görüş

Martın 16-da təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına işgüzar səfəri başlayıb.

Səfər çərçivəsində təhsil naziri Emin Əmrullayev Türkiyənin milli təhsil naziri Mahmut Özerlə görüşüb. Görüş zamanı iki ölkə arasında ümumi və peşə təhsili sahəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Tərəflər iki ölkənin ümumi təhsil müəssisələrinin şagirdlərinin qarşılıqlı olaraq səfərlərinin təşviqi haqqında əldə olunmuş razılıq əsasında cari ilin 15-22 mart tarixlərində Azərbaycandan olan 25 şagird və onları müşayiət edən müəllimlərdən ibarət heyətin Türkiyənin Çanakkala şəhərinə səfərindən dolayı məmnun olduqlarını vurğulayıblar.

Qeyd edilib ki, cari ilin may-iyun aylarında isə Türkiyənin ümumi təhsil müəssisələrinin şagird və müəllimlərindən ibarət heyətin Bakıya və işğaldan azad olunmuş ərazilərə səfəri nəzərdə tutulur.



## Azərbaycan-Türkiyə birgə Universiteti barəsində müzakirələr aparılıb

## Türkiyə Respublikası Ali Təhsil Şurasının rəhbəri ilə görüş

Təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə Respublikasına işgüzar səfəri davam etməkdədir.

Səfər çərçivəsində martın 16-da təhsil naziri Emin Əmrullayev Türkiyə Respublikası Ali Təhsil Şurasının rəhbəri Erol Özvar ilə görüşüb.

Görüş zamanı yaradılması nəzərdə tutulan Azərbaycan-Türkiyə birgə Universiteti barəsində ətraflı müzakirələr aparılıb.



## Azərbaycanlı şagirdlər Çanakkalada

Azərbaycanın ümumi təhsil müəssisələrinin şagirdlərindən və onları müşayiət edən müəllimlərdən ibarət 25 nəfərlik heyət Türkiyənin Çanakkala şəhərinə səfər edib.

15-22 mart 2022-ci il tarixlərini əhatə edən səfərin əsas məqsədi iki ölkənin şagirdləri arasında ünsiyyətin intensivləşdirilməsi və hər iki ölkənin tarixində xüsusi yer alan hadisələrin birgə qeyd olunmasıdır.

Səfər çərçivəsində heyət 16-18 mart tarixləri arasında Çanakkala şəhərində bir neçə rəsmi proqrama qatılacaq və sözügedən şəhərdə yerləşən Troia Antik Şəhəri, Çimenlik Qalası və digər tarixi abidə və Seyit Onbaşı Dostlarının şəhid olduğu Rumeli Məcidiyə, 57-ci alay və digər şəhidlər xiyabanlarını ziyarət edəcəklər. Daha sonra heyət İstanbul şəhərinə doğru hərəkət edəcək və 19-22 mart tarixləri arasında İstanbulda yerləşən Ayasofya məscidi, Çamlıca qülləsi və digər tarixi abidələrdə olacaqlar.

# BÖLGƏ TƏHSİLİ: İnkişaf perspektivləri, prioritet hədəflər

## Təhsil naziri Emin Əmrullayev Ağdaş rayonunda və Gəncə şəhərində səfərdə olub













### Ağdaşda STEAM Mərkəzi

Martın 11-də təhsil naziri Emin Əmrullayev Ağdaş rayonuna səfər edib.

Səfər çərçivəsində Ağdaş şəhəri M.Şeyxzadə adına internat tipli texniki, humanitar və təbiət təmayüllü gimnaziyada STEAM Mərkəzinin açılış mərasimi keçirilib.

Mərasimdən əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Açılış mərasimində iştirak edən təhsil naziri Emin Əmrullayev Mərkəzdə şagirdlər üçün yaradılmış şəraitlə tanış olub.

Bildirilib ki, Mərkəz regional xarakter daşıyır. Belə ki, Ağdaş rayonu ilə yanaşı, Yevlax, Bərdə, Ucar, Mingəçevir və Kürdəmirdən olan şagirdlər də bu Mərkəzdə yaradılmış imkanlardan faydalana bilərlər.

Artıq bir neçə bölgədə bu cür STEAM Mərkəzinin istifadəyə verildiyini qeyd edən təhsil naziri bildirib ki, ölkə üzrə ümumilikdə 15 STEAM Mərkəzinin tikilməsi nəzərdə tutulub. Emin Əmrullayev deyib ki, STEAM yanaşması Azərbaycan təhsilinin müasirliyini təmin etməklə yanaşı, şagirdlərin zəruri bilik və bacarıqlara yiyələnməsinə də kömək edəcək.

Qeyd edək ki, hazırda ölkə üzrə 100 mindən çox şagirdi əhatə edən STEAM layihəsinin növbəti tədris ilində genişləndirilməsi planlaşdırılır.

Layihənin məqsədi təhsilalanlarda tənqidi, yaradıcı düşüncə, əməkdaşlıq etmə və digər XXI əsr bacarıqlarını formalaşdırmaq, yaradıcı proses vasitəsilə öyrənmə imkanı yaratmaqdır. Həmçinin fənləri inteqrativ, real problemlərin həlli istiqamətində tətbiqlərə əsaslanan vahid öyrənmə modelində birləşdirmək, müxtəlif proqramlaşdırma dillərini tətbiq etməklə müasir İKT avadanlıqlarından istifadə edə bilmə qabiliyyətlərini yüksəltmək də layihənin məqsədlərindəndir.

### Regionun təhsil işçiləri ilə görüş

Martın 11-də təhsil naziri Emin Əmrullayev Ağdaş rayonuna səfəri çərçivəsində Mərkəzi Aran Regional Təhsil İdarəsinə daxil olan Mingəçevir şəhəri, Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax və Zərdab rayonları üzrə təhsil işçiləri ilə görüşüb.

Görüşdə sözügedən bölgələrin ümumi təhsil müəssisələrində çalışan gənc müəllimlər, həmçinin yerli təhsili idarəetmə qurumlarının rəhbərləri, məktəb direktorları iştirak ediblər.

Görüş zamanı regionda təhsil sahəsi üzrə mövcud problemlər və onların həlli ilə bağlı fikirlər səsləndirilib, təhsilin keyfiyyətinin artırılması istiqamətində atılan addımlar və görüləcək işlər müzakirə edilib.

Görüşdə həmçinin təkliflər dinlənilib və suallar cavablandırılıb.

### Nazir vətəndaşları qəbul edib

Martın 12-də təhsil naziri Emin Əmrullayev Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl, Samux və Kəlbəcər rayonlarında qeydiyyatda olan sakinlər, həmçinin həmin şəhər və rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünləri qəbul edib.

Qəbuldan əvvəl ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Pandemiya qaydalarına uyğun olaraq həyata keçirilən qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, işlə təmin olunma, məktəb binalarının əsaslı təmir və tikintisi, həmçinin digər məsələlərlə bağlı müraciətlər ediblər.

Nazir qəbula yazılmış vətəndaşların müraciət, şikayət və təkliflərini diqqətlə dinləyərək hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin müvafiq aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

### Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinə daxil olan bölgələrin təhsil işçiləri ilə görüş

Martın 12-də təhsil naziri Emin Əmrullayev Gəncə şəhərinə səfəri çərçivəsində Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinə daxil olan Gəncə və Naftalan şəhərləri, Daşkəsən, Goranboy, Göygöl və Samux rayonları üzrə təhsil işçiləri ilə görüşüb.

Görüşdə qeyd edilən şəhər və rayonlar üzrə yerli təhsili idarəetmə orqanlarının rəhbərləri və məktəb direktorları iştirak ediblər.

Görüşün keçirilməsində məqsəd bölgələrdə çalışan təhsil işçiləri ilə sıx əlaqə yaratmaq, onların təklif, rəy və təşəbbüslərindən təhsil sahəsində həyata keçirilən islahatlar prosesində istifadə etmək, təhsil müəssisələrində təlim-tərbiyə işinin təşkili və digər məsələlərin müzakirəsi olub.

Görüşdə təhsil işçilərinin təklifləri dinlənilib və suallar cavablandırılıb.

# “Sabahın alimləri” XI Respublika Müsabiqəsinin yekunları haqqında

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəaliyyət planı və Təhsil Nazirliyi ilə tərəfdaş təşkilatların 21 yanvar 2022-ci il tarixli Q-01 nömrəli birgə Qərarına əsasən, mövcud pandemiya şəraiti ilə əlaqədar “Sabahın alimləri” XI Respublika Müsabiqəsi cari ilin 14-21 fevral tarixlərində Bakı şəhərində onlayn keçirilmişdir. Müsabiqə İSEF - Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində təşkil olunmuşdur. Müsabiqənin təşkilatçıları Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Gənclər və İdman Nazirliyi, Heydər Əliyev Mərkəzi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi olmuş, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Texniki Universiteti və Sumqayıt Dövlət Universiteti tərəfindən müsabiqəyə elmi dəstək verilmişdir. Bu tədbirdə Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Bakı, Sumqayıt, Mingəçevir, Naxçıvan Muxtar Respublikası, Abşeron, Gəncə, Astara, Lənkəran, Cəlilabad, Quba, Qax, Biləsuvar, Şəki, Şirvan, Balakən, İsmayıllı və Ucarda yerləşən ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri iştirak etmişlər.

Müsabiqədə iştirak etmək istəyən şagirdlərin qeydiyyatı onlayn həyata keçirilmişdir. Elektron qeydiyyatdan keçirilmiş 247 layihədən müsabiqədə 192 layihə ilə 326 şagird iştirak etmişdir. Bu layihələrdən 58-i fərdi, 134-ü isə kollektiv işlənilmiş layihələr olmuşdur.

Layihələrin qiymətləndirilməsini həyata keçirmək məqsədi ilə alimlərdən ibarət Münsiflər heyəti yaradılmışdır. Qiymətləndirmə 8 istiqamət (riyaziyyat, fizika və astronomiya, kimya, biologiya, tibb və sağlamlıq, ekologiya və ətraf mühitin idarə olunması, mühəndislik, kompüter elmləri) üzrə həyata keçirilmişdir. Münsiflər heyətinin qərarına görə müxtəlif kateqoriyalar üzrə I, II və III yerlərə 48 layihə üzrə 84 şagird, o cümlədən I yerə 7 layihə üzrə 12 şagird, II yerə 16 layihə üzrə 30 şagird, III yerə 25 layihə üzrə 42 şagird layiq görülmüşdür. Qaliblər sırasından İSEF-də iştirak etmək üçün 7 layihə (12 şagird) seçilmişdir.

Qaliblərə müsabiqənin təşkilatçıları adından diplom, medal və hədiyyələr, müsabiqə iştirakçılarına isə müsabiqənin sertifikatları və medalları təqdim ediləcək.

Qeyd olunanları nəzərə alaraq və “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 13.5-ci bəndini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. 14-21 fevral 2022-ci il tarixində “Sabahın alimləri” XI Respublika Müsabiqəsinin Münsiflər heyəti tərəfindən seçilən qaliblərinin siyahısı təsdiq edilsin (əlavə 1).
2. Təşkilatçıların 21 yanvar 2022-ci il tarixli Q-01 nömrəli birgə qərarına uyğun olaraq, qaliblərə (əlavə 1), qalib şagirdlərin rəhbərlərinə (əlavə 2), Münsiflər Heyətinə (əlavə 3) və Elmi Ekspertiza Komitəsinin üzvlərinə (əlavə 4) nəzərdə tutulmuş pul mükafatları verilsin.
3. 2022-ci ilin may ayında ABŞ-da onlayn keçiriləcək İSEF - Mühəndislik sərgisində iştirak etmək üçün seçilmiş şagirdlərin siyahısı təsdiq edilsin (əlavə 5).
4. Aparat rəhbərinin müavini, “Sabahın alimləri” XI Respublika müsabiqəsinin direktoru Y.Piriyev təmin etsin:

   4.1. İSEF-də iştirak edəcək şagirdlərin layihələrinin və təqdimatlarının ingilis dilində hazırlanmasına nəzarət etsin;

   4.2. İSEF-in Təşkilat Komitəsinə müvafiq məlumatların göndərilməsini təmin etsin.
5. İnformasiya və vətəndaşlara xidmət şöbəsi (R.Xanlarov) əmrin çoxaldılıb aidiyyəti müəssisələrə göndərilməsini, İctimaiyyətlə əlaqələr sektoru (C.Valehov) Nazirliyin internet səhifəsində yerləşdirilməsini və “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını təmin etsin.
6. Əmrin icrasına nəzarət nazir müavini F.Qurbanova həvalə olunsun.

**Emin ƏMRULLAYEV,**
**Azərbaycan Respublikasının təhsil naziri**

*14 mart 2022-ci il*

# Təhsil nazirinin müavini Hindistan səfiri ilə görüşüb



Martın 16-da təhsil nazirinin müavini Muxtar Məmmədov Hindistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavna ilə görüşüb.

Görüş zamanı Azərbaycan və Hindistan arasında təhsil sahəsində əlaqələrin cari vəziyyəti və gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

# Kibertəhlükəsizlik üzrə yeni təhsil resursu

**İstifadəçilər arasında kibertəhlükəsizlik, kibercinayətkarlarla mübarizə haqqında nəzəri bilik və praktik bacarıqlar formalaşdırılır**

Kibertəhlükəsizlik haqqında məlumatlılığın artırılmasını təmin etmək məqsədilə *1337.edu.az* veb səhifəsi fəaliyyətə başlamışdır. Resursun yaradılmasında əsas məqsəd müxtəlif yaş qrupuna daxil olan istifadəçilər arasında kibertəhlükəsizlik, kibercinayətkarlarla mübarizə haqqında nəzəri bilik və praktik bacarıqların formalaşdırılmasıdır. Eyni zamanda kibertəhlükəsizlik anlayışının təhsil müəssisələrində genişləndirilməsi məqsədilə layihə çərçivəsində icma tədbirlərinin təşkil olunması və internetdən istifadə üçün sağlam mühitin formalaşdırılması nəzərdə tutulub.

Fərqli yaş qrupuna aid olan hər bir internet istifadəçisi *1337.edu.az* veb səhifəsində qeydiyyatdan keçərək informasiya təhlükəsizliyi sahəsində baş verən yeniliklərlə tanış ola və müxtəlif kateqoriyalar üzrə məlumatlar paylaşa bilərlər.

Veb səhifədə “Müzakirə Forumu” bölməsi fəaliyyət göstərir ki, bu bölmədə kibertəhlükəsizlik üzrə mütəxəssislər tərəfindən informasiya təhlükəsizliyinə aid müntəzəm olaraq bloq postlar yerləşdirilir. Bu hissədə eyni zamanda “İnsidentlərin idarə olunması və cavab tədbirləri”, “Nüfuzetmə testləri” və s. kimi mühüm məsələlər müzakirə edilir və həll yolları göstərilir.

Qeyd etmək lazımdır ki, *1337.edu.az* resursu Azərbaycan Respublikasının Təhsil Nazirliyinin kibertəhlükəsizlik və kibercinayətkarlarla mübarizə haqqında bilik və bacarıqların inkişaf etdirilməsinə yönəlmiş “Kibertəhlükəsizlik” təlim layihəsinin uğurlu nəticəsi olaraq yaradılmış və Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi tərəfindən dəstəklənir.

# Astara məktəblisi təqaüdlə dünyanın top universitetini qazandı



Astara rayonu Pensər kənd 2 nömrəli məktəb-liseyin şagirdi Salman Hüseynov dünyanın top universitetlərindən olan Massaçusest Texnologiya İnstitutunun (MIT) təqaüdünü qazanıb.

Salman Hüseynov 2019-2020-ci tədris ilində keçirilən respublika fənn olimpiadalarında kimya fənni üzrə II, 2020-2021-ci tədris ilində isə I yerin qalibi olub.

Beynəlxalq olimpiadalarda da iştirak edən Astara məktəblisi 2021-ci ildə Yaponiyada təşkil edilən ICHO-Beynəlxalq Kimya Olimpiadasında (distant) III yeri əldə edərək bürünc medal qazanıb.

Salman Hüseynov hazırda beynəlxalq olimpiada hazırlıq mərkəzində kimya fənni üzrə dərslərdə iştirak edir.

Məktəblimizi təbrik edir və uğurlar arzulayırıq!

# Qazaxıstanda 2022-2023-cü tədris ili üzrə təqaüd proqramı

Qazaxıstanın Elm və Təhsil Nazirliyi 2022-2023-cü tədris ili üzrə Azərbaycan vətəndaşları üçün təqaüd proqramı elan edir.

Təqaüd proqramı Qazaxıstan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlığa dair 3 aprel 2017-ci il tarixində imzalanmış müqaviləyə əsasən həyata keçirilir.

Proqram hər iki ölkənin vətəndaşlarına tələbə mübadiləsi əsasında qarşı ölkənin ali təhsil müəssisələrində bakalavriat və magistratura təhsil səviyyələri üzrə təhsil almaq imkanı yaradır.

Təqaüd proqramına müraciət üçün son tarix 30 aprel 2022-ci il nəzərdə tutulub.

Ətraflı məlumatı elan (https://htp.edu.az/uploads/fileuploads/2022/03/688367c920b644e49c3d6c268235fbb9.pdf) vasitəsilə əldə edə bilərsiniz.

# “Məktəbli startapçılar” adlı yeni layihəyə start verilir

Bakı Şəhəri üzrə Təhsil İdarəsi və AzEdu Təhsil Portalı tərəfindən “Məktəbli startapçılar” adlı yeni layihəyə start verilir.

Layihədə paytaxt məktəblərində təhsil alan istedadlı, təşəbbüskar məktəblilərin uğurlu startap layihələrindən bəhs olunacaq. Bakı məktəblərində təhsil alan startapçılar təhsil həyatları, ideyaları, təqdim etdikləri yeniliklər və gələcək planları barədə danışacaqlar.

Layihənin məqsədi yaradıcı və yenilikləri ilə fərqlənən, sadəcə məktəbdə öyrəndikləri ilə kifayətlənməyib daha çox məlumat əldə etməyə çalışaraq fərqli işlər ərsəyə gətirən Bakı məktəblərinin istedadlı gənc startapçılarını ictimaiyyətə tanıtmaqdan ibarətdir.

Əlavə olaraq, məktəblilərin gündəlik həyatlarını, startap ideyalarını əks etdirən fotoşəkil və videogörüntülər də layihə çərçivəsində təqdim olunacaq.

Həmçinin layihədə iştirak edən şagirdlər ideyalarını startapa çevirmək istəyən digər məktəblilərə fikir və tövsiyələrini təqdim edəcəklər.




**Martın 16-da Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Filologiya fakültəsinin dekanı vəzifəsini icra edən professor Mahirə Hüseynovanın təşəbbüsü ilə şair, nasir, dramaturq, Əməkdar incəsənət xadimi, ictimai xadim Hidayət Orucovun yaradıcılığına həsr olunmuş “Gəncliyim gözümdə canlandı mənim” adlı tədbir keçirilib.**

# “Gəncliyim gözümdə canlandı mənim”



## ADPU-da Hidayət Orucovun yaradıcılığına həsr olunmuş tədbir keçirilib



Tədbirdə ADPU-nun rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərov çıxış edərək Hidayət Orucovun Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində rolundan danışıb, ədəbi ictimaiyyət tərəfindən sevilən şəxsiyyət olduğunu vurğulayıb.

Hidayət Orucovun ictimai fəaliyyəti ilə yanaşı, bədii yaradıcılığının, xüsusilə “Burdan min atlı keçdi”, “İrəvanda xal qalmadı” əsərlərinin, şeirlərinin müasir Azərbaycan ədəbiyyatının əvəzsiz nümunələri olduğunu diqqətə çatdırıb, yaradıcılığındakı vətənpərvərlik ruhundan bəhs edib.

Sonra ADPU-nun Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının professoru, filologiya elmləri doktoru Yaqub Babayev Hidayət Orucovun zəngin bədii irsi haqqında əhatəli çıxış edib.

Tədbirin bədii hissəsində Filologiya fakültəsinin nəzdində fəaliyyət göstərən “Meh” ədəbi dərnəyinin üzvləri Hidayət Orucov yaradıcılığına aid bədii kompozisiya ilə çıxış edib, şeirlərini səsləndirib, “Bu dünyanın adamları” dramından bir hissəni tamaşaya qoyublar.

Sonra Azərbaycanın görkəmli elm və ictimai xadimlərinin Hidayət Orucov haqqındakı fikirlərinə həsr edilmiş videoçarx nümayiş olunub.

H.Orucovun sözlərinə bəstələnən “Məktub” mahnısının ifa edilməsi tədbir iştirakçılarında xoş ovqat yaradıb.

“Meh” ədəbi dərnəyinin rəssamı Günel Bağırovanın çəkdiyi portreti qonağa hədiyyə verməsi də maraqla qarşılanıb.

Daha sonra tələbə və müəllimlər Hidayət Orucova suallar ünvanlayıblar. O, tələbə və müəllimləri maraqlandıran suallara cavab verib, tədbirə görə ADPU-nun rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərova və başda professor Mahirə Hüseynova olmaqla Filologiya fakültəsinə təşəkkürünü bildirib.

Tədbirin sonunda ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, Filologiya fakültəsinin dekanı vəzifəsini icra edən professor Mahirə Hüseynova çıxış edərək Hidayət Orucov poeziyasında müasir insan həyatının, yaşamının xoş ovqatından, şairin lirik “Mən”inin əxz etdiyi mənəvi dəyərlər işığından, şeirləri ilə müasir poeziyaya yeni ovqat aşılamasından söz açıb, Filologiya fakültəsinin dəvətini qəbul edərək görüşə gəldiyinə görə qonağa minnətdarlığını bildirib.

**Türkiyənin Adana şəhərində “Kitab anımı”nı ehtiva edən bir abidə ucaldılıb. Abidədə XX əsrin dahi şəxsiyyətlərinin adları var. Dühası geniş, “İstiqlal” ordenli xalq şairi Bəxtiyar Vahabzadənin adı bu abidədə 6-cıdır. Abidənin postamentində Mustafa Kamal Atatürkün məşhur bir kəlamı həkk olunub: “Mən uşaq ikən fəqir idim. İki quruş əlimə düşüncə, onun bir quruşunu kitaba verirdim. Əgər belə etməsəydim, istədiklərimin heç birini edə bilməzdim”.**



## Bəxtiyar Vahabzadə

# Vətənpərvər, milli şair

## Ürəklərdə abidəsi ucaldılan DAHİ

Azərbaycan poeziya məbədinin ucaldılmasında danılmaz rolu olan, dünya ədəbiyyatının xəzinəsinə özünəməxsus töhfələr verən İstiqlal şairi Bəxtiyar Vahabzadə cəsarətli qələm və kəlam sahibidir.

Bəxtiyar Vahabzadə lirikasının mövzu genişliyi və rəngarəngliyi onun böyük mütaliəsindən, İlahi fəhmindən xəbər verir. O, hansı mövzuda yazırsa yazsın, orada vətəndaşlıq və vətənpərvərlik, millilik, türkçülük və turançılıq, böyük şairin ölçüsüz istedadının təcəllası, müdrik yaradıcılığının ehtişamı var.

Bəxtiyarın yaradıcılığı ilə tanış olan oxucu özünü rahat hiss edir,ürəkdən gələn fəlsəfi sətirlərdə öz dünyasını tapa,həyacanına sahib çıxa bilir.

Qırğızıstan respublikasının həmişəyaşar şairi Çingiz Aytmatov Bəxtiyar Vahabzadənin poetik fikirlərinə yaxşı bələd olduğu üçün yazır: “Bəxtiyar poeziyasında lirizmlə vətəndaşlığın vəhdəti ayrılmaz qoşa simlərdir”. Bəli, bu qoşa simlər səsləndikcə haray qoparır, onun erudisiyalı dünyagörüşünə şəhadət verir.

Bəxtiyar Vahabzadə lirikasının vurğunu olan, sonralar İslam dinini qəbul edən Ahmed Şmide (Hanspeter Şmide) şairin “Ana dili”şeirinin alman dilində tərcüməsini oxuyandan sonra onu Vətən və ana dilinin mücahidi kimi qəbul edir. O, “Mən,vətənə və dilimə olan məhəbbətimi Bəxtiyarın “Ana dili” şeirini oxuyandan sonra anladım!” - qənaətinə gəlir.

Bu canlı abidə Bəxtiyar yaradıcılığının unikal lirikasıdır - deyərdim!

*Dil açanda ilk dəfə,ana söyləyirik biz.*
*Ana dili adlanır bizim ilk dərsliyimiz.*
*Bu dil bizim ruhumuz,*
*Eşqimiz, amalımızdır,*
*Bu dil bir-birimizlə*
*Əhdi-peymanımızdır...*

1967-ci ildə Kasablankada qələmə aldığı “Latın dili” şeiri də həssas məsələ tək göz bəbəyi kimi qorunmasını hamıya tövsiyə edir. Şair bu dili Azərbaycan dili ilə müqayisə edir. “Vətən ola-ola dilimiz niyə korlanıb?” - deyir. Mütəşabeh fikirə baxın, əziz oxucular!

*İndi söylə,*
*Hansı dilə ölü deyək:*
*Vətən varkən, Millət varkən,*
*Kiçik, yoxsul komalarda*
*Dustaq olan bir diləmi?..*

Sovet dönəmində ədəbi davranışla bir araya sığmayan belə ifadələri yalnız Bəxtiyar olan şairlər - Bəxtiyar Vahabzadə yaza bilərdi.

Bəxtiyar Vahabzadə coğrafiyası geniş lirikası ilə həmişə oxucularının nəbzini tuta bilib. Əslində bu bacarıq və qabiliyyət şairin liderliyə xas böyük xarizmasından xəbər verir.

Qənaətimə görə Bəxtiyarın dövründə yaşayıb yaradan nəslin yaradıcılığında bir güc varıydı, partlayışa və şimşəyə bənzər bir güc. Zamanın böyüdücü şüşəsi altında o güc salnamədə Nobel mükafatının bünövrəsini qoyan dinamitin kəşfinə bənzər və böyük görünür... Səməd Vurğun, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Rəsul Rza, Əli Kərim, Nəriman Həsənzadə, Məmməd İsmayıl, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Məmməd Araz, Vahid Əziz və başqaları o səhnədə şəfəqli simada görünürlər.

Bəxtiyar Vahabzadənin özünəməxsus yaradıcılığı dünya yazarlarının ponaptikumunda (Qədimdə mumdan hazırlanmış heykəllər və əntiq əşyalar muzeyi) artıq əbədiləşmişdir.

Çingiz Aytmatovun fikrinə hörmətlə yanaşaraq - “Keçmişə və ötüb keçənlərə görə əzab çəkib, ona bu günün gözüylə baxmaq Bəxtiyar Vahabzadənin mövzu dairəsinin genişliyindən, fəlsəfəsindən və bir az da mürəkkəbliyindən xəbər verir”.

*Şeytanlar milləti qorxuda bildi,*
*Doğru danışanı asdılar dardan.*
*Qızıl saraylarda fərman verildi,*
*Tarix gəlib keçdi ac komalardan...*
*“Topqapı sarayı”*

Kitab rəfimdə ulu şairin seçilmiş əsərləri var. 1999-cu ildə çapdan çıxmış “İstiqlal” əsəri şairin öz dəst-xətti ilə mənə ərməğan edilib. “Qeyrət, təmizlik, təvazökarlıq nümunəsi əzizim Şəmsəddin üçün. B.Vahabzadə 26.03.2003”.

Ulu şair üçün “Azadlıq” heç vaxt bir rəngdə olmayıb. O, “Azadlıq var özgəsinə yamaq kimidir, azadlıq da var, qollarda qandala bənzər-deyir. Şair azadlığı ali dəyərlər sırasında görür. İnsan azadlığı olmayan məmləkətlərdə fəlakətlər baş verər, beyinlər kütləşər, həqiqət riyakar, ədalət boyaya çevriləcək” - fikrində qalır.

*Azadlıq!*
*Azadlıq əldən getdimi...*
*Gedər ağızlardan dad da, ləzzət də*
*Ağıl da, ürək də gülər arzuya.*
*Azadlıq olmayan bir məmləkətdə.*
*Həqiqət bir riya, ədalət boya...*
*Azadlıq olmayan bir məmləkətdə*
*Düz əyri adlanar,əyri düz olar....*
*“Azadlıq alınar, yaddan umulmaz”.*

Bu sətirləri yazdıqca 1989-cu ilin mitinqləri kino pərdəsi kimi gözlərimin önündə canlanır. Mən onda polis sıralarında xidmətdə idim. Hökumət evinin qarşısındakı meydana toplaşan milyonlarla vətənsevərlərin əllərində Bəxtiyar Vahabzadə meydana gətirilirdi... Biz, bu unudulmaz seyrangahı seyr etdikcə qürrələnərdik ki, millətimizin belə bir oğlu var.

*Şərəfdir ölmək də azadlıq üçün,*
*Bu məslək dəyməzmi bütün dinlərə?*
*Deyirəm eşq olsun dünən və bu gün*
*Azadlıq yolunda can verənlərə!...*

Ruhu bir daha şad olsun!

Şair bundan artıq sözünü necə ifadə etməliydi?

Heç kimin şübhəsi yoxdur ki, Bəxtiyar Vahabzadə yaşasaydı, 44 günlük Vətən müharibəsində qazanılan zəfərlə bağlı daşı dəlib keçəcək poetik sətirlərinin də şahidi olardıq. Eşq olsun Vətən yolunda canını fəda edənlərə! Döyüşdə və qələbədə xidməti olanları Allah qorusun!

Rusiyanın tanınmış şairi K.Simonov Bəxtiyarı “Müstəsna istedada malik və qeyri-adi şair”, Türkiyənin nüfuzlu şairi Yavuz Bülənd “Azərbaycanın dərdlərini hayqıran şairi” adlandırmışlar.

*...İnsan, insan olur öz hünəriylə,*
*Millət, millət olur xeyri, şəriylə*
*Torpağın bağrına cəsədləriylə*
*Azadlıq tumunu əkdi şəhidlər...*
*“Şəhidlər”*

Bəxtiyar Vahabzadənin yaradıcılığı təkrarolunmaz hadisələrlə zəngindir. Onun poetik meydanında ardıcıllıq olduğundan oxucunun ekstessi baş vermir, yəni oxucu mütaliə niyyətindən - qarşısında olan kitabı oxumadan kənara çəkilə bilmir.

İnsanı yaşadan unudulmayan əməlləridir.

Siyasi burulğanlardan şərəflə və üzüağ çıxan BƏXTİYAR VAHABZADƏ ürəklərdə abidəsi ucaldılan sənətkarlardandır...

**Şəmsəddin ƏLİYEV,**
*AYB-nin üzvü, hüquqşünas-publisist*



**27 sentyabr - 10 noyabr 2020-ci il... Azərbaycanın şanlı tarixi olan 44 günlük Vətən müharibəsi. Azərbaycan ordusu qarı düşmənin üstünə şığıdı bir aslan kimi. Şimşək kimi çaxdı göyün ənginliyində igidlərimizin nifrət dolu baxışı. Sel kimi coşub daşdı ürəyi vətən eşqi ilə döyünən minlərlə igid oğullarımızın hiddəti, qəzəbi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuz qələbə qazandı. Vətən müharibəsində qazanılan qələbə Azərbaycan tarixinin ən möhtəşəm səhifələrindən biridir.**

# QƏHRƏMAN, ŞƏHİD məzunumuz

## Torpaqlarımızı işğaldan azad etmək müqəddəs amalı idi

İgidlərimiz dəmir yumruq kimi birləşib illərin səbrini, intiqamını əldə silah edib hücum etdilər yağıların üstünə. Ölümün üstünə gülə-gülə, mərdanəliklə, qorxmazcasına atıldılar. Minlərlə igid bir an belə öz həyatını düşünmədən düşmən üzərinə şığıyıb illərdir işğal altında inim-inim inləyən torpaqlarımızın qisasını aldı. 28 ildir gözüyaşlı qalan ana-bacıların, qız-gəlinlərin, yetim qalmış uşaqların, bir milyondan çox qaçqın, köçkünün hayıfını aldılar 44 günlük Vətən müharibəsində. Hər bir əsgər sinəsini sipər etdi ana Vətən naminə. Can verdilər, qan tökdülər şəhid, qazi oldular, amma düşmənə baş əymədilər, sinələrində yurd sevgisi, gözlərində intiqam alovu, düşüncələrində analarının öyüd -nəsihəti ölümün gözünə dik baxdılar. Hər bir qəhrəman bir salnamə yazdı öz igidliyi, fədakarlığı, qeyri-adi döyüş məharəti, şərəfli ölümü ilə... Onlar öz ölümləri ilə ölümsüzlük qazandılar, ən ali mərtəbə olan Şəhidlik zirvəsinə yüksəldilər. Vətən sevgisi ilə qəlbləri çırpınan qəhrəmanlarımızın bir amalı var idi: təki Vətən sağ olsun, Qarabağ azad olsun, Şəhidlərin ruhu rahatlıq tapsın, Azərbaycan bütövləşib tam olsun.

*Bəlkə də, borcundan çıxmadım vətən,*
*Ömür bahar deyil, bir də qayıtsın.*
*Öləndə qoynunda qoy ölüm ki, mən,*
*Çürüyüm bir ovuc torpağın artsın.*

Bəli, qəhrəmanlarımız ölümləri ilə vətənimizə can verdilər, təzə ruh bəxş etdilər.

Qarabağda qəhrəmanlıq dastanı yazan belə igidlərimizdən biri də məktəbimizin məzunu şəhid Zaur Kamal oğlu Mədətovdur. O, 1999-cu il noyabrın 16-da Sumqayıt şəhərində anadan olub. İlk təhsilini Abşeron rayonunun ərazisində yerləşən Qubadlının Xanlıq kənd orta məktəbində alıb. Zaur uşaq yaşlarından idmana, xüsusilə də cüdoya böyük maraq göstərib. Məhz idmana olan həvəsi onu 277 nömrəli idman təmayüllü tam orta məktəbə gətirir. Zaur öz əzmi və iradəsi ilə nəinki ölkəmizdə keçirilən idman yarışlarında, eyni zamanda ölkə xaricində təşkil edilən mötəbər turnirlərdə vətənimizi layiqincə təmsil edib. O, idman arenalarında uğurlu çıxışları ilə daim üçrəngli bayrağımızı zirvələrə qaldırır. Cüdo üzrə yeniyetmə və gənclər arasında təşkil olunan klub birinciliklərində, 28 May Respublika Gününə, ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunan cudo turnirlərində, Gürcüstanda, Türkiyədə təşkil edilən müxtəlif beynəlxalq yarışlarda birincilik əldə edib. Çempion Zaur Mədətov hər zaman təmsil etdiyi ölkənin idman şərəfini qoruyub. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, Cüdo Federasiyası, Kano Cüdo İdman Məktəbi, digər qurum və nüfuzlu idman təşkilatları tərəfindən diplom və medallarla təltif edilib.

Zaur Mədətov doğma vətəninə bağlı olan əsgər kimi 2018-ci ildə Ağstafa rayonunun “N” saylı hərbi hissəsində xidməti borcunu yerinə yetirib.

Zaurun 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başlananda könüllü olaraq döyüşlərə qatılmağı məhz onun vətənə, torpağa olan sevgisindən qaynaqlanırdı. Doğma Vətənimizin keşiyində durmaq, yurdumuzun hər qarış torpağını göz bəbəyi kimi qorumaq və düşmənə sarsılmaz zərbə vurmaq onun başlıca amalı idi. İdman yarışlarında ən ali adı qazanan çempion Zaurun Vətən müharibəsində də bir məqsədi var idi: işğal altında olan torpaqlarımızı azad etmək və yeri gəlsə son damla qanınadək vuruşmaq, sonunda şəhid olsa belə... Və elə də oldu.

Şəhidlikdən şərəfli, qürurverici ad varmı? Zaur Mədətov bu dəfə də seçildi. Döyüş meydanında igidlik göstərib zəfər tariximizə adını qızıl hərflərlə yazdırdı. 8 oktyabr 2020-ci il tarixdə Füzuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olaraq ölməzliyə ucaldı.

Hər zaman idman yarışlarında qələbə qazanan Zaur Mədətov bu dəfə sinəsini Qarabağın azadlığı və Azərbaycanın bütövlüyü naminə sipər etdi, şəhadət mərtəbəsinə yüksəldi. Zirvələrə qaldırdığı üçrəngli bayrağa bükülüb həmişə fəxarətlə səsləndirdiyi Azərbaycan himninin sədaları altında Sumqayıt Şəhidlər xiyabanında dəfn edildi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə Zaur Kamal oğlu Mədətov ölümündən sonra “Vətən uğrunda” və “Cəbrayılın azad edilməsi uğrunda” medalları ilə təltif edilib.

Qəhrəmanımızın əziz xatirəsi onun vaxtilə təhsil aldığı doğma məktəbində hər zaman ehtiramla yad olunur. Belə ki, təhsil müəssisəmizin foyesində Vətən müharibəsində şəhid olan məzunlarımız -Zaur Mədətov və Rəşad Babayevin xatirə lövhəsi var, qəhrəmanlarımızın şəkillərindən ibarət xüsusi stend qoyulub. Bundan başqa, siniflərdə hər iki igidimizin keçdiyi şərəfli həyat yolunu əks etdirən divar qəzetləri tərtib edilib, fotosərgi keçirilib. Biz şagirdlərimizə şəhid məzunlarımızdan sevə-sevə, fəxr hissi ilə bəhs edirik. Qəhrəmanlarımıza həsr olunan anım gecələrində onların şücaətindən, göstərdikləri igidliklərdən danışılır.

Şagirdlərin milli vətənpərvərlik ruhunda tərbiyəsində qəhrəmanlıq salnaməmizi öz qanları ilə yazan şəhidlərin ev-muzeylərinə də ziyarətin böyük əhəmiyyəti var. Bunu diqqətdə saxlayan məktəbimizin müəllim və şagird heyəti şəhid Zaur Mədətovun ailəsinə baş çəkərək onun valideynləri ilə görüşüb.

Görüş zamanı Zaur Mədətova vaxtilə dərs demiş müəllimləri onun hələ məktəb illərindən necə vətənpərvər, mübariz, qorxmaz olduğunu qeyd edərək qəhrəmanlarımızla daim qürur duyduqlarını bildiriblər. Çıxış edənlər Zaur Mədətovla bağlı xatirələrindən danışaraq məhz belə qəhrəmanların şəxsi nümunəsinin böyüməkdə olan gənc nəslin əsl vətənpərvər kimi yetişdirilməsində böyük rol oynadığını xüsusi vurğulayıblar.

*Cəsarətdə, ey igid, tayın-bərabərin yoxdur,*
*Baxışların elə bil alovdilli bir oxdur.*
*Deyiləcək, söylənəcək kəlmələrim çoxdur,*
*Vətənə layiq Zaurum, Şəhid məzunum Zaur!*

*Tarixlərə yazıldı sənin şərəfli adın,*
*Vətənə qurban etdi səni böyüdən qadın.*
*Onun laylasıyla qəlbən elə bağlandın,*
*Qəhrəman övladım Zaur, Şəhid məzunum Zaur!*

*Cənnət bağında var yüz minlərlə gül, qönçə*
*Onlardan daha ətirli şəhid qoxusu, məncə.*
*Anamız Azərbaycanı qərq etdin sən sevincə.*
*Qalib əsgərim Zaur, Şəhid məzunum Zaur!*

*Şəhid qardaşlarınla həmişə qəlblərdəsən!*
*Yaz ömrünü qış edib vətəni sevindirmisən!*
*Sənin izinlə gedən milyonlar var, bir bilsən.*
*Ölməz igidim Zaur, Şəhid məzunum Zaur!*

**Günel MƏMMƏDOVA,**
*Bakı şəhəri 277 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi*



## Baloğlan Quliyev - 85

**Dosent, pedaqogika üzrə fəlsəfə doktoru Baloğlan Quliyev yüksəkixtisaslı kadrlar hazırlanması sahəsində uzun illərdir ki, səmərəli elmi-pedaqoji fəaliyyət göstərir. Təsadüfi deyildir ki, məhz bu fəaliyyətinə görə universitetin 90 illik yubileyi münasibətilə Təhsil Nazirliyinin fəxri fərmanı ilə təltif edilmişdir. Həmin il Baloğlan müəllimin anadan olmasının 75, elmi-pedaqoji fəaliyyətinin isə 50 ili tamam olmuş, böyüməkdə olan gənc nəslin təlim-tərbiyəsi sahəsində çəkdiyi zəhməti lazımınca qiymətləndirilmişdir.**

# Daim axtarışda olan alim

Baloğlan müəllimin keçdiyi ömür yoluna nəzər saldıqda bu illər ərzində onun elmi-pedaqoji fəaliyyətində nə kimi irəliləyişlər olduğu aydın görünür. O, 85 yaşını haqlasa da əvvəlki illərdə olduğu kimi, indinin özündə də “Fiziki tərbiyə”, “Fiziki tərbiyə və onun tədrisi metodikası” (İbtidai sinif müəllimliyi ixtisası üçün), o cümlədən idman fənlərinin tədrisi metodikasının (Fiziki tərbiyə və çağırışaqədər hazırlıq müəllimliyi ixtisası üçün) səmərəliliyinin yüksəldilməsində, gələcək müəllimlərin peşə hazırlığı və idman ustalığının artırılmasında fəal iştirak edir. Təcrübəli pedaqoq fiziki tərbiyə, eləcə də idmanın ayrı-ayrı növlərinin təliminə müasir innovativ yanaşmaların tətbiqinin təbliği və reallaşması üzrə öz əməyini əsirgəməmişdir.

B.Quliyev respublika və beynəlxalq dərəcəli idmançı tələbələrin təhsil-tərbiyəsində, yüksəkixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasında zəruri kömək göstərir, müəllim və magistrantların, tədqiqatçı tələbələrin yararlanması məqsədilə “Azərbaycan məktəbi”, “Məktəbəqədər və ibtidai təhsil”, “Pedaqoji Universitet xəbərləri”, ARTİ-nun “Elmi əsərləri” kimi elmi-nəzəri və metodiki jurnallarda vaxtaşırı çıxış edir. Həmin elmi-metodiki çıxışlarda şagird və tələbələrin təlim prosesində idrakı fəaliyyətinin yüksəldilməsi, fiziki inkişafının təmini, hərəki qabiliyyətinin artırılması və mənəvi-iradi xüsusiyyətlərinin formalaşdırılması araşdırılır. Xüsusən, fiziki tərbiyə prosesinin fəal (interaktiv) metodla təşkilinin imkan və yolları açıqlanır. Bu da təhsil-tərbiyəyə yeni yanaşmanın həyata keçirilməsi fonunda təlim-tərbiyə işlərinin keyfiyyətinin artırılmasına səbəb olur, təlimin daha optimal qurulmasını şərtləndirir. Bunlar bütövlükdə məktəblilərin sağlam həyat tərzinin və fiziki mədəniyyətinin formalaşmasına, gümrah, şən, yüksək əhvali-ruhiyyədə, dözümlü və iradəcə möhkəm olmasına zəmin yaradır, onların cəmiyyət üçün layiqli vətəndaş kimi böyüməsinə imkan verir.

B.Quliyevin elmi-metodiki fəaliyyətinə diqqət yetirsək məlum olur ki, onun 200-dən çox tədqiqat işi çap olunmuş, bunlardan da 61-i dərs və metodiki vəsait, tədris proqramı, 2-si monoqrafiya, 6-sı xaricdə çap olunmaqla 9 beynəlxalq elmi-metodik konfrans materialları (Qdansk (Polşa - 1976), Moskva (1972, 2020), Minsk (1976), Kiyev (1982), Çeboksari RF (2020), qalanları isə jurnal və qəzet məqalələridir. Həmin tədqiqat işləri müasir tələblərə tam cavab verir və dövlət tədris proqram materiallarının təliminin təkmilləşdirilməsini əhatə edir. Xüsusən, ümumtəhsil məktəbinin qarşısında qoyulmuş başlıca məqsəd və vəzifələrin reallaşdırılmasının, eləcə də fiziki tərbiyə üzrə təlim-tərbiyə sahəsində strateji hədəflərin həyata keçirilməsinin imkan və yollarının araşdırılmasına həsr edilmişdir. Çap olunmuş tədqiqat əsərlərində kiçikyaşlı məktəblilərin fiziki tərbiyəsinin məzmunu, mahiyyəti, funksiyaları, metod və formaları, təlimin təşkili, nailiyyətlərin qiymətləndirilməsinin modernləşdirilməsi, tədris prosesinin idarə edilməsinin mütərrəqi pedaqoji mexanizmlər baxımından şərh olunmuşdur. Eyni zamanda təhsilalanların və təhsilverənlərin yeni təlim texnologiyalarının tətbiqində kompleks yanaşma, birgə fəaliyyətin tənzimlənməsi və stimullaşdırılmasını təmin edən komponentlər, fərdiləşdirmə, diferensiallaşdırma və peşəkar (səriştəli) yanaşmaların mahiyyəti, gerçəkləşdirilməsi imkanları araşdırılır. Bundan əlavə, Azərbaycan milli oyunlarının kiçikyaşlı məktəblilərin fiziki mədəniyyətinin formalaşmasına təsirinin eksperimentdə yoxlanılmasının metodikası, fəal (interaktiv) təlimin təşkili yolları, onun nəticəsi öz əksini tapmışdır.

Diqqətçəkən sevindirici hal budur ki, Baloğlan müəllimin çap olunmuş tədqiqat işlərinin 36-sı son 7 ilin zəhmətinin bəhrəsidir. Bunlardan 2-si monoqrafiya, 12-si fənn proqramları (kurikulumları), 16-sı respublikanın elmi-nəzəri jurnallarında çap olunmuş məqalələrdir. Nüfuzlu xarici jurnallarda çap edilmiş 6 məqalədən isə 1-i “Thomson Reuters” reytinqli (Kanada - Ottava, 2018), 4-ü isə beynəlxalq indeksləşmə (bazasına) sistemlərinə (Skopus) daxildir.

Bütün bunlar onu deməyə əsas verir ki, “Fiziki tərbiyə və çağırışaqədər hazırlığın tədrisi texnologiyası” kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru B.S.Quliyev Təhsil İslahatı Proqramının fiziki tərbiyə üzrə məqsəd və vəzifələrin həyata keçirilməsi üçün lazımi elmi-pedaqoji fəaliyyət göstəmişdir. Xüsusən, məktəblilərə fiziki mədəniyyətin aşılanması üçün məqsədyönlü axtarışlar aparmış və aparmaqda davam edir. Bütün bunlar fiziki tərbiyənin məzmununun milli zəmində zənginləşdirilməsinə, milli oyunların bəşəri sərvət olaraq dünya çapında təbliğinə yönəldilməsi qloballaşma dövründə Azərbaycanın müstəqil dövlət olaraq milli maraqlarına tam şəkildə uyğun gəlir.

B.Quliyev fakültə və kafedranın ictimai həyatında, bədən tərbiyəsi sağlamlıq tədbirlərində fəal iştirak edir, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik müəllim kimi tələbə və həmkarlarının, təhsil ictimaiyyətinin hörmətini qazanmışdır. Mədəniyyətimizin ayrılmaz hissəsi olan milli fiziki tərbiyəni xaricdə nəşr edilən nüfuzlu beynəlxalq jurnallarda layiqincə təbliğ və təmsil edən tədqiqatçı alim kimi dəyərləndirilir.

Baloğlan müəllim “Azərbaycan Respublikasının Fəxri Bədən Tərbiyəsi və İdman işçisi”, güləş üzrə SSRİ idman ustasıdır. Azərbaycan SSR Maarif Nazirliyi (indiki Azərbaycan Respublikasının Təhsil Nazirliyi), Bədən Tərbiyəsi və İdman Komitəsi (hazırki Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi), eyni zamanda Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutu (Azərbaycan Respublikasının Təhsil İnstitutu) və Azərbaycan Dövlət Pedaqoji Universiteti, eləcə də idman təşkilatları tərəfindən ictimai fəaliyyətinə görə dəfələrlə fəxri fərmanlarla təltif olunmuşdur. O, Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurasının, “Milli Pedaqogika məktəbi” elmi-pedaqoji jurnalının redaksiya heyətinin, ADPU-nun 15 il və fakültə Elmi Şurasının isə 32 ilə yaxın üzvü, fakültə Elmi Şurasının katibi, “Məktəbdə bədən tərbiyəsi” məcmuəsinin redaktoru olmuşdur.

85 yaşlı yubliyar Baloğlan müəllimə elmi-pedaqoji fəaliyyətində nailiyyətlər və cansağlığı arzulayırıq.

**Eldar ABDULLAYEV,**
*ADPU-nun “Fiziki tərbiyə və çağırışaqədər hazırlığın tədrisi texnologiyası” kafedrasının müdiri*

# "Pedaqogika nəzəriyyəsi və tarixi"




"Mütərcim" nəşriyyatı ali məktəb müəllimləri və tələbələri üçün yeni dərsliyi (Pedaqogika nəzəriyyəsi və tarixi: Ali təhsil müəssisələri üçün dərslik. Bakı: Mütərcim, 2022, 464 səh.) nəşr edib. Dərsliyin müəllifləri pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim Akif Abbasov, pedaqogika üzrə fəlsəfə doktorları Lalə Məmmədli və İradə Əmirəliyevadır.

Dərslik iki hissədən ibarətdir. Birinci hissədə "Pedaqogika nəzəriyyəsi", ikinci hissədə isə "Pedaqogika tarixi" məsələləri diqqət mərkəzinə gətirilir.

"Pedaqogika nəzəriyyəsi" hissəsində pedaqogikanın ümumi məsələləri, əsas anlayışları, predmeti, məqsəd və vəzifələri, tədqiqat metodları, didaktika və tərbiyə məsələləri, məktəbə rəhbərlik və onun idarə olunması (məktəbşünaslıq) problemləri nəzərdən keçirilir.

"Pedaqogika tarixi" hissəsində isə Azərbaycanın və Şərqin möhtəşəm sənəd abidələrində, Azərbaycan mütəfəkkirlərinin, klassik və müasir pedaqoqlarının, eyni zamanda dünya pedaqoqlarının təhsil, tərbiyə, təlim və onların təşkili məsələlərinə, məktəbin idarə olunması, müəllim şəxsiyyətinə dair fikirləri nəzərə çatdırılır.

Dərslikdən ali məktəb tələbələri, müəllimlər, dissertant və doktorantlar, magistrantlar, magistrlər, valideynlər, həmçinin geniş oxucu kütləsi istifadə edə bilərlər.

**Zaman-zaman uşaq ədəbiyyatının inkişafına dövlət tərəfindən diqqət ayrılıb. Dünya ədəbiyyat boxçasına Azərbaycanın uşaq şair və nasirlərinin bəxş etdiyi ədəbi nümunələr həmişə sevilə-sevilə oxunub. Dahi Nizami Gəncəvi yaradıcılığından başlanan bu janr sonrakı əsrlərdə dünya ədəbiyyatına töhfələr verən klassiklər tərəfindən davam etdirilib. Uşaq və yeniyetmələrin mənəvi dünyalarının zənginləşməsinə xidmət edən uşaq ədəbiyyatı müxtəlif janrlar üzrə inkişaf mərhələsi keçib.**

# Uşaq yazıçısı şagirdlərin arasında

Ümumiyyətlə, uşaq ədəbiyyatı ədəbi mühitdə daha çox diqqət tələb edən sahə olub. Bu janrda əsər yazan şair, yaxud yazıçı, bəstəkar, eləcə də rəssam qarşısına qoyulan tələblər də ciddi olub. Uşaqlar üçün ərsəyə gətirilən hər hansı bir əsər, ilk növbədə, tərbiyəvi xarakter daşımalı, yetişməkdə olan nəslin müstəqil həyata düzgün istiqamətlənməsi prosesində əhəmiyyətli rol oynamalıdır. Görkəmli maarifçi şair Seyid Əzim Şirvani, Abdulla Şaiq kimi ədiblərimiz ötən əsrin uşaqlar üçün yazıb-yaradan görkəmli söz sahibləri olublar.

Bütövlükdə bütün şair və yazıçılarımız, bəstəkarlarımız, rəssamlarımız uşaq yaradıcılığına da yer ayırıblar və onların hər birinin qələmə aldığı ədəbi nümunələr uşaqlar tərəfindən maraqla qarşılanıb, sevilə-sevilə oxunub, dinlənilib. Sonrakı illərdə ədəbiyyat tariximizdə xüsusi imzası olan şair və yazıçılarımız İlyas Tapdıq, Oqtay Rza, Məstan Əliyev, Zahid Xəlil və başqaları uşaqlar üçün gözəl əsərlər ərsəyə gətirən qələm sahiblərimiz olublar və bu ənənə bu gün də davam etdirilir.

Bu günlərdə Bakı Modern Təhsil Kompleksi kitabxanasının təşkilatçılığı ilə uşaqların sevimli yazarı olan, əsərləri məktəbli dostlarımız tərəfindən sevilə-sevilə oxunan istedadlı yazar Sevinc Nuruqızı ilə görüş keçirilib. S.Nuruqızı öz əsərlərində kiçikyaşlı oxucuların təlim-tərbiyəsinə, onların mənəvi dünyalarının zənginləşməsinə və formalaşmasına töhfə verən, dilinin sadəliyinə və şirinliyinə görə rahat oxunan qələm sahiblərindəndir. Görüşdə yazarın uşaqlar üçün yeni nəşr edilən "Melisa" hekayə-povesti müzakirə edilib. Müəllif şagirdləri maraqlandıran sualları ətraflı cavablandırıb və onlara uşaq ədəbiyyatına maraqlarını artırmağı tövsiyə edib. Sonra isə şagirdlərin ifasında Sevinc Nuruqızının yaradıcılığından bəzi nümunələr səsləndirilib. Tədbirin sonunda isə müəllif kiçikyaşlı oxucuları ilə xatirə şəkli çəkdirib.

**Sifai SƏFƏROVA**



**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

Qəzet 1934-cü ildən çıxır

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.İ.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 3009 **Sifariş** 783

**Məsul növbətçi:** S.Kərimova

# Etibarsız sayılır

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2020-ci ildə Müşfiqli Afərim Şahverdi qızına verilmiş C-059598 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2021-ci ildə Zindadil Leyla Behnam qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 192 nömrəli tam orta məktəbi 02.07.2021-ci ildə bitirmiş Məmmədov Rəhim Ramil oğluna verilmiş E-372401 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 23 nömrəli tam orta məktəbi 27.06.2012-ci ildə bitirmiş Rüstəmova Fidan Murad qızına verilmiş A-114031 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı İnşaat Texnikumu** tərəfindən 1992-ci ildə Osmanova Gülçöhrə İsmayıl qızına verilmiş 104108 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Nizami Gəncəvi adına (indiki F.Salmanov adına) şəhər tam orta məktəbi 2011-ci ildə bitirmiş Rəsulov Elgün Müşfiq oğluna verilmiş 067161 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Nizami Gəncəvi adına (indiki F.Salmanov adına) şəhər tam orta məktəbi 2014-cü ildə bitirmiş Rəsulov Elvin Müşfiq oğluna verilmiş A-349959 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan şəhər** 8 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Sadıqova Süreyya Müseyib qızına verilmiş 670132 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Havzava kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əzizov Asif Akif oğluna verilmiş B-065186 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Qarazəncir kənd tam orta məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Nəzərova Fəridə Daşqın qızına verilmiş 333065 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Abazallı kənd tam orta məktəbi 1986-cı ildə bitirmiş Əzizov Ziyafət Mirzəxan oğluna verilmiş 175706 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Kazımabad kənd tam orta məktəbi 1995-ci ildə bitirmiş Ağayeva Ruhəngiz Əliqadir qızına verilmiş A-120826 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 242 nömrəli tam orta məktəbin IX sinfini 11.06.2009-cu ildə bitirmiş Məmmədli Səid Cəmil oğluna verilmiş A-772918 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Siyəzən şəhər** C.Cabbarlı adına 1 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Əzizov Yusif Xəyyam oğluna verilmiş E-399511 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti** tərəfindən 1988-ci ildə Dadaşova Esmira Cahangir qızına verilmiş PB-041332 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2018-ci ildə Mirzəzadə Mirsadiq Saleh oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Şərur rayon** Düdəngə kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Quliyeva Gülnar Qasım qızına verilmiş A-748943 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 12 nömrəli tam orta məktəbin IX sinfini 1990-cı ildə bitirmiş Məmmədova Dilbər Məmməd qızına verilmiş A-657918 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 23 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Rzayeva Xoşqədəm İlqar qızına verilmiş 137700 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Tükəvilə kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Talıbova Sevinc Xalıq qızına verilmiş B-445195 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 117 nömrəli tam orta məktəbin IX sinfini 14.06.1996-cı ildə bitirmiş Əsgərova Aygül Əliəkbər qızına verilmiş B-119767 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta məktəbi 17.06.2006-cı ildə bitirmiş Eminova (Tağıyeva) Mətanət Abbas qızına verilmiş B-277462 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 5 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Cəfərov Nihad Rəşad oğluna verilmiş E-327010 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2021-ci ildə Əlizadə Esmiralda Seymur qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Dövlət Universiteti** tərəfindən 2017-ci ildə İmaməliyeva Nərmin Eldar qızına verilmiş A-120498 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** İsaqbağı kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Musayev Ramin Əkbər oğluna verilmiş A-154808 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala şəhər** Z.Murtuzəliyev adına 1 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş Həsənova Məryəm Elçin qızına verilmiş B-742562 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu** (BSU)0 tərəfindən 1986-cı ildə Tağıyeva Mehriban Sərxan qızına verilmiş TB-I-085575 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Tivi kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş İbrahimov Məhərrəm Çingiz oğluna verilmiş A-235027 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayon** Xələc kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Feyruzlu Ərşad Əjdər oğluna verilmiş B-403336 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 8 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Orucova Fəxriyyə Dəmir qızına verilmiş A-686081 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Çobansıxnaq tam orta məktəbi 2004-cü ildə bitirmiş Mustafayeva Fəxriyyə Fəxrədin qızına verilmiş B-037820 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2020-ci ildə Hüseynova Xumar Şirvan qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2002-ci ildə Abbasova Sevil Musavi qızına verilmiş A-101434 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 8 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Osmanlı Nicat Ayaz oğluna verilmiş A-448894 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 14 nömrəli köçkün tam orta məktəbi 2005-ci ildə bitirmiş İmanova Lamiyə Elman qızına verilmiş B-149590 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Lerik rayon** Rvarud kənd tam orta məktəbini 1999-cu ildə bitirmiş Salayeva (İskəndərova) Züleyxa Zayrəli qızına verilmiş A-331173 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 01.07.2019-cu ildə bitirmiş Badamşin Roman Romanoviçə verilmiş E-197474 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# QƏLƏBƏ ətirli NOVRUZ



## Şəhid övladlarının iştirakı ilə bayram tədbiri



Paytaxt məktəbində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində təhsil alan şəhid övladlarının iştirakı ilə “Qələbə ətirli Novruz” adlı bayram tədbiri keçirilib.

Məktəb-Lisey Kompleksində keçirilən bayram tədbirində BŞTİ-nin müdir müavini Hüseyn Əsgərov, Nərimanov Rayon İcra Hakimiyyətinin nümayəndəsi Gülşən Yaqubova, İdarənin müvafiq struktur bölmə rəhbərləri, məktəb direktorları, şəhid ailələrinin üzvləri və şagirdlər iştirak ediblər.

Tədbir iştirakçılarını salamlayan MLK-nın direktoru Esmira Quliyeva xalqımızın milli ruhunu, mənəvi-əxlaqi dəyərlərini özündə yaşadan Novruz bayramı ənənələrini gələcək nəsillərə aşılamağın vacibliyindən danışıb. Bildirib ki, tədbir eyni zamanda 30 illik həsrətdən sonra bayram tonqallarının doğma yurd yerlərimizdə alovlanmasının səbəbkarları olan Vətən müharibəsi şəhidlərinə sonsuz minnətdarlıq, vəfa borcumuzun göstəricisidir.

BŞTİ-nin müdir müavini H.Əsgərov çıxış edərək əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə əks etdirən Novruz bayramının insanlar arasında birlik və bərabərliyin möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam təməllər üzərində bərqərar olduğunu söyləyib.

Nərimanov rayon İH-nin nümayəndəsi G.Yaqubova və digər çıxış edənlər çoxəsrlik Novruz ənənələri, ümumilikdə milli-mədəni dəyərlərimiz barədə şagirdləri məlumatlandırmaq, onları keçmişimizə məhəbbət ruhunda tərbiyə etmək işində belə tədbirlərin əhəmiyyətindən danışıblar.

Qeyd edək ki, “Qələbə ətirli Novruz” adlı bayram tədbiri BŞTİ-nin təşəbbüsü ilə reallaşan “Bahar çələngi” layihəsi çərçivəsində keçirilib.

Bayram şənliyində şagirdlər bahar bayramına aid mahnılar ifa edib, şeirlər səsləndirib, maraqlı səhnəciklər nümayiş etdiriblər.

## Məktəblər inkişaf etdirilir



**Elxan NƏCƏFOV,**
*ARTİ MDPİM-in Əlaqələndirmə şöbəsinin müdiri*

### Azərbaycan məktəbinin intellekt məktəbinə çevrilməsi, nailiyyətlərin düşüncə, təfəkkür səviyyəsinə görə qiymətləndirilməsi əsas prioritetlərdəndir

Təhsilin demokratik, humanist prinsiplər əsasında inkişaf etdirilməsi məzmunun, texnologiyaların və idarəetmə sisteminin yenidən qurulmasını, həmçinin təhsil sisteminin cəmiyyətin ehtiyac və tələbatlarına uyğunlaşdırılmasını prioritet istiqamət kimi tələb edir. Bu istiqamətdə görülən işlər, ilk növbədə, təhsilin idarəedilməsində dəyişikliklərin aparılmasını həlledici amillərdən biri kimi qarşıya qoyur. Təhsilin idarə edilməsində metodiki-pedaqoji əsaslara istinad edilməsi, idarəçilik fəaliyyətinin hesabatlılıq, məsuliyyətin bölüşdürülməsi və keyfiyyətin monitorinqi prinsipləri əsasında qurulması günümüzün ən vacib tələblərindəndir. Tədrisin təşkilində bütün fəaliyyətlərin inkişafyönümlü xarakterdə olması onun keyfiyyət göstəricilərinin ardıcıl izlənməsini, keyfiyyətin gözlənilən nəticələrin reallaşdırılması səviyyəsi ilə müəyyənləşdirilməsini zəruri edir.

Azərbaycan məktəbinin dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, intellekt məktəbinə çevrilməsi, nailiyyətlərin düşüncə, təfəkkür səviyyəsinə görə qiymətləndirilməsi təhsil siyasətinin əsas prioritetlərindəndir. Bu baxımdan, mövcud metodik işin təşkili sisteminin təşkilati-struktur baxımından yeniləşdirilməsinə ehtiyac günü-gündən artmaqdadır.

Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən pedaqoji kadrlara metodik dəstəyin göstərilməsi, onların peşəkar bacarıqlarının artırılması və yenidən hazırlanması, təlim-tərbiyə işlərinin keyfiyyətinin yaxşılaşdırılması və məktəblərə effektli metodiki dəstəyin göstərilməsi istiqamətində müxtəlif layihə və proqramlar uğurla icra edilir. Bu fəaliyyətlərdən biri də Məktəbin İnkişaf Planının (MİP) tətbiq olunmasıdır. Təhsildə Keyfiyyət və Təminat Agentliyi (TKTA) tərəfindən ümumtəhsil müəssisələrində aparılan inspeksiyaların nəticəsi olaraq öyrənmə mühiti, tədrisin təşkili, idarəetmə göstəriciləri və s. üzrə aşağı nəticə göstərən məktəblər üçün metodik dəstək hərakatı başlanılmış və bununla bağlı müxtəlif strategiyalar hazırlanmışdır. Məktəbin İnkişaf Planının hazırlanması prosesində ARTİ və BŞTİ birlikdə fəaliyyət göstərir. Proses yanvar ayından etibarən başlanmışdır və hazırda 20-dən artıq məktəbdə MİP-in hazırlanması və metodik dəstəyin göstərilməsi davam etməkdədir.

ARTİ tərəfindən məktəblərdə metodik dəstəyin göstərilməsi və MİP-in hazırlanmasında işin icrası Metodik Dəstək və Peşəkar İnkişaf Mərkəzinə (MDPİM) həvalə edilmişdir. MİP-in hazırlanmasında nəzərdə tutulan fəaliyyətlər üçün əsas meyarlar TKTA-nın inspeksiya hesabatı olsa da, inkişaf planına proqnozlaşdırılmış strateji fəaliyyətlər də əlavə edilmişdir. Bu baxımdan, hər bir məktəb üçün MİP spesifik və fərdi yanaşmalarla hazırlanır. Burada məktəbin şagird və müəllim kontingenti, yerləşdiyi ərazi, kadr potensialı, məktəbin infrastruktur təminatı, məktəb-valideyn əməkdaşlığı, təhlükəsizlik şəraiti və s. kimi nüanslar diqqətlə öyrənilir, təhlil edilir. Nəticə olaraq məktəbin potensialına uyğun real hədəflənə bilən fəaliyyətlər aşkara çıxarılır. MİP-ə daxil edilmiş fəaliyyətlərin aşkara çıxarılmasında məktəb rəhbərliyi və məktəb tərəfindən təyin edilmiş MİP komandası aktiv rol oynayır. Belə ki, ARTİ-MDPİM əməkdaşları MİP-in hazırlanmasında fasilitator rolunu oynayır. Qeyd edək ki, Məktəbin İnkişaf Planı hazırkı mərhələdə hər bir məktəb üçün 1 illik nəzərdə tutulmuşdur. Növbəti illərdə 3 və ya 5 illik inkişaf planlarının hazırlanması planlaşdırılır.

MİP-in hazırlanması və inkişaf istiqamətləri üçün fəaliyyətlərin real aşkarlanması məqsədilə ARTİ-MDPİM əməkdaşları hər bir məktəbdə ən azı 2-3 həftə müxtəlif fəaliyyətləri icra edir. Bura daxildir:

* TKTA-nın inspeksiya hesabatının təqdimatı və müzakirəsi;
* Məktəb rəhbərliyi tərəfindən təklif edilmiş MİP komandasının təlimatlandırılması;
* Məktəb rəhbərliyi və idarəetmə heyəti ilə ümumi və fərdi görüşlər;
* Dərsdinləmələr və müşahidələrin ümumi və fərdi müzakirəsi.

İcra edilən fəaliyyətlərin nəticəsi olaraq əldə edilən data MİP-in hazırlanmasında TKTA-nın hesabatından sonra ikinci baza rolunu oynayır.

Məktəbin İnkişaf Planının hazırlanmasında bir neçə qabaqcıl ölkələrin öndə gələn məktəblərinin təcrübəsi tədqiq edilmiş, müqayisələr aparılmış və əldə edilən nəticəyə əsasən yerli şərait və reallıqlara uyğun vahid MİP forması hazırlanmışdır. Bu baxımdan, məktəblər üçün hazırlanan MİP 6 sahə və 24 altmeyar olmaqla ümumiləşdirilmişdir.

Məktəbin İnkişaf Planında yer almış sahələr üzrə fəaliyyətlərin icrası və hədəflənən nəticələrin əldə edilməsində məsuliyyətin əsas hissəsi məktəb rəhbərliyi və MİP komandasının üzərinə düşür. Bununla bərabər arzulanan müsbət meyllərin əldə edilməsi üçün ARTİ tərəfindən müxtəlif metodik fəaliyyətlər nəzərdə tutulmuşdur. Bura ümumi pedaqoji heyət üçün nəzərdə tutulmuş qeyd edilən seminarlar, təlimlər və mentorluq proqramları daxildir:

* əməkdaşlıq əsaslı ünsiyyət bacarıqları;
* dərsin planlaşdırılması;
* sinfin səmərəli idarə edilməsi;
* müəllim-müəllim, müəllim-şagird, müəllim-valideyn münasibətləri;
* məktəbdaxili öyrənmə mühitinin təşkili;
* məktəbdaxili qiymətləndirmənin təşkili;
* məktəb-valideyn əməkdaşlığı;
* məktəbdaxili dərsdinləmənin və metodik dəstəyin təşkili.

Bununla bərabər pedaqoji heyətin ehtiyaclarına uyğun olaraq elektron oxu materialları və əyani vəsaitlərlə təminat da nəzərdə tutulmuşdur.

## Tələbələr peşəkarlardan öyrənəcək



**Tural ALIŞOV,**
*ARTİ-nin İstedadlı uşaqlarla iş şöbəsinin müdiri*

### “Mühəndislik düşərgəsi” praktik səriştələrə yiyələnməkdə gənclər üçün gözəl imkan olacaq

22-26 mart 2022-ci il tarixlərində Azərbaycan Respublikasının Təhsil İnstitutunun təşkilatçılığı ilə Quba rayonunda tələbələrin “Mühəndislik düşərgəsi” təşkil ediləcək. Düşərgədə ali təhsil müəssisələrinin mühəndislik ixtisaslarında bakalavriat səviyyəsi üzrə təhsil alan III və IV kurs tələbələri, həmçinin magistratura səviyyəsi üzrə təhsil alanlar iştirak edə bilərlər.

**Niyə “Mühəndislik düşərgəsi”?**

Universitetlərdə verilən təhsilin məqsədi yüksək səviyyəli tədrisi həyata keçirmək və tədqiqatlar aparmaqla cəmiyyətə elmi təfəkkür qabiliyyətinə və bacarıqlarına sahib fərdlər qazandırmaq, həmçinin həyata keçirilən tədqiqatlarla elmi və texnoloji inkişafa töhfə verməkdir. Aparılan təhlillər nəticəsində universitetlərin mühəndislik ixtisasları üzrə təhsil proqramlarının əsasən texniki fənlər çərçivəsində formalaşdığı müşahidə edilir. Mövcud bu sistem səmərəliliyin bilikdən asılı olduğunu qəbul edir. Halbuki, bilik və məlumat zəruridir, ancaq yetərli deyildir.

Bu gün “yaxşı” hesab ediləcək bir mühəndisin inkişafa və yeniliklərə adaptasiya ola bilən, özünə güvənən, sərbəst düşünə bilən, idarəetmə, liderlik keyfiyyətlərinə və ünsiyyət bacarıqlarına malik olan, iqtisadi, sosial və hüquqi çərçivəni bir arada sistemli şəkildə düşünə bilən bir profilə sahib olması vacibdir. Dövrün bu tələblərinə cavab vermək üçün mühəndislik ixtisası üzrə tədris alan tələbələr texniki bacarıqlarla yanaşı, problemi bütövlükdə dərk edə və praktik həll yolu göstərə, dünyagörüşünü genişləndirən və əsas problemləri aşkarlaya bilməlidirlər.

Mühəndislik elmi-texniki sahə olmaqla yanaşı, eyni zamanda sosial bir təşəbbüsdür. Mühəndislər birlikdə çalışdıqları insanlarla effektiv ünsiyyətdə olmalıdırlar. Mühəndislər texniki və təbiət elmləri bacarıqlarını sosial elmlərlə əlaqələndirməyi bacarmalıdırlar. Mühəndislər müvafiq sahə üzrə problemlərini fənlər arasında əlaqə quraraq həll etmək bacarıqlarına malik olmalıdırlar. Mühəndis öz sahəsində ilkin bilik və bacarıqlar qazanmış, müvafiq mövzularda məlumat sahibi, təhlil, sintez və dizayn etmək, ömürboyu öyrənmə vərdişinə yiyələnmiş şəxsiyyət profilinə sahib olmalıdır.

Planlaşdırılan “Mühəndislik düşərgəsi” məhz yuxarıda sadalanan praktik səriştələrə yiyələnməkdə tələbələr üçün gözəl imkan olacaqdır. Düşərgə çərçivəsində tələbələrə mühəndisliklə bağlı qlobal trendlər, yeni texnologiyalar, layihələrin idarə olunması, mühəndislikdə idarəetmə, dizayn təfəkkürü, səmərəli istehsalın təşkili və planlaşdırılması, proseslərin təhlükəsizliyi, mühəndislik əsaslı startaplar, karyera inkişafı və digər istiqamətlərdə təlimlər təşkil olunacaq. Proqram hazırda yerli və beynəlxalq şirkətlərdə işləyən peşəkar mühəndislər tərəfindən praktik təlimlər vasitəsilə həyata keçiriləcək.

İştirakçıların asudə vaxtının səmərəli təşkili məqsədilə düşərgədə, həmçinin, müxtəlif idman və bilik yarışları təşkil olunacaq. Təlimlərin sonunda bütün iştirakçılara sertifikat təqdim olunacaq. Beş gün ərzində tələbələr iş dünyası təcrübələrindən bəhrələnməklə yanaşı, müxtəlif universitetlərin mühəndislik ixtisası üzrə təhsil alan tələbələr ilə informasiya mübadiləsi aparmaq və bir-birlərindən öyrənmək imkanı qazanacaqlar.

Düşərgədə iştirak etmək istəyən tələbələr 10 mart 2022-ci il tarixinədək qeydiyyatdan keçmişdir. Qeydiyyat bitdikdən sonra müsabiqənin şərtlərini ödəyən 615 nəfər tələbə riyaziyyat üzrə baza biliklərinin, eləcə də məntiqi təfəkkürünün yoxlanılması məqsədilə təşkil olunmuş test imtahanında iştirak edib. Bu imtahanda uğur qazanan tələbələr müsahibəyə dəvət olunacaq və müsahibənin nəticəsinə əsasən düşərgədə iştirak hüququ qazanacaqdır.